*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 mart 2019-cu il № 17 (2334) Qiymәti 30 qəpik

## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

*Prezident İlham Əliyev fevralın 28-də Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2019-cu il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il aprelin 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz son illərdə hərbi qüdrətimizi böyük dərəcədə artıra bilmişik



Bu gün dünyada mövcud olan və inkişaf yolunu tutan ölkələrin hamısı öz milli və hərbi təhlükəsizlik maraqlarını qoruyur. Bu baxımdan Ermənistanın təhdidi ilə üz-üzə qaldığı bir zamanda Azərbaycan milli və hərbi təhlükəsizliyinə xüsusi diqqət yetirir. Ölkənin iqtisadi inkişafı nəticəsində yeni silah və texnologiyaların alınması, istehsalı torpaqlarımızın işğaldan azad ediləcəyinə böyük inam yaradır. Azərbaycan Ordusunun uğurları da dünya dövlətlərinə, o cümlədən işğalçı Ermənistana diktə edir ki, Azərbaycanla hesablaşmaq lazımdır. Bizim məqsədimiz öz milli maraqlarımızı yüksək səviyyədə qorumaq, təhdidlərə qarşı barışmaz olduğumuzu dünya ictimaiyyətinə sübut etməkdir.

Ümumiyyətlə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi diplomatik yolla həllini tapa bilməsə hərbi vasitələrdən istifadə istisna olunmur. Müstəqilliyi dövründə humanist dəyərlərə önəm verən dövlətimiz yenə də üzləşdiyi münaqişənin sülh yolu ilə həllinə tərəfdardır. Ermənistan isə əksinə, həmişə sülh danışıqlarından boyun qaçırır və mövcud status-kvonu saxlamağa çalışır.

Bu günlərdə Ermənistanın müdafiə naziri David Tonoyanın ölkəsinin hərbi strategiyasının müdafiədən hücuma dəyişdiyini bəyan etməsi Ermənistanın işğalçı dövlət olduğuna, sülh danışıqlarından yayındığına və mövcud status-kvonu uzatmağa çalışdığına bir işarədir. Eyni zamanda bu bəyanat Ermənistanın işğalçılıq siyasəti yürüdərək hücum xarakterli silahlar əldə etdiyini beynəlxalq ictimaiyyətə aydın şəkildə nümayiş etdirir. Ancaq düşünmürlər ki, Ermənistan daxili auditoriyaya hesablanmış ucuz təbliğat xarakterli bəyanatları ilə Azərbaycanı qorxutmaq gücündə deyildir. Bəyanat ona hesablanıb ki, bu gün Ermənistan cəmiyyətində Qarabağla bağlı narahatlıqlar çoxalır. Ermənistan gündən-günə güclənən və qüdrətini artıran Azərbaycan Ordusu qarşısında dura bilməyəcəyini görür və gərginlik artır. Bu gün bir tərəfdən Ermənistan iqtisadiyyatını gücləndirmək imkanına malik deyil, digər tərəfdən Azərbaycan Ordusu ilə müəyyən prioritet saxlamaq üçün silah, kredit almağa məcburdur. Bunlara baxmayaraq, Ermənistanın gücü, qüdrəti, iqtisadi və hərbi imkanları Azərbaycanla prioritet saxlamağa imkan vermir.

**(Ardı 2-ci səhifədə)**

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz son illərdə hərbi qüdrətimizi böyük dərəcədə artıra bilmişik



(Əvvəli 1-ci səhifədə)

Bu gün Azərbaycan Ordusu Ermənistan ordusundan müqayisəedilməz dərəcədə üstündür. Ölkəmiz kifayət qədər güclü, peşəkar və işğal olunan torpaqlarını azad etmək iqtidarında olan orduya malikdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışlarının birində Azərbaycan Ordusunun inkişafı məsələsinə toxunaraq bildirib: "Biz son illər ərzində öz hərbi qüdrətimizi böyük dərəcədə artıra bilmişik. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu il ölkəmizdə iki dəfə keçirilmiş hərbi parad bizim gücümüzü, bizim güclü ordumuzun potensialını göstərir. Ən müasir silahlarla, texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu çox yüksək döyüş qabiliyyətinə malikdir və biz bu il bunu bir daha təsdiq etdik. Azərbaycan Ordusu Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan istiqamətində uğurlu əməliyyat keçirərək 11 min hektar torpağa tam nəzarət edir. Strateji yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisindən keçən önəmli kommunikasiyalara və yollara tam nəzarət edək.

Biz bundan sonra da öz hərbi qüdrətimizi artıracağıq. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik və danışıqlarda iştirakımız bunun əyani sübutudur. Ancaq hər kəs bilir və bilməlidir ki, münaqişənin həlli üçün hərbi amil xüsusi rol oynayır və bundan sonra da biz hərbi qüdrətimizi artıracağıq".

Azərbaycanda ordu quruculuğu daim diqqətdə saxlanılır. Ölkə başçısının bölgələrə, bu baxımdan ön xətdə yerləşən hərbi hissələrdə zabit və əsgərlərlə söhbətləri şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəldir. Ali Baş Komandanın belə səfərləri Böyük Qələbəyə inamımızı daha da artırır. Beyləqana səfəri də məhz bu baxımdan böyük ruh yüksəkliyi yaratdı. Prezidentin çıxışı istər şəxsi heyətin, istərsə də ictimaiyyətin Böyük Qələbəyə inamını daha da artırdı...

**"Azərbaycan Ordusu"**

# Düşmən təmas xəttinə yaxın olan yaşayış məntəqələrini daima atəş altında saxlayır



*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster fevralın 27-də Ağdam rayonunda olublar.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ağdam rayon İcra Hakimiyyətində keçirilən görüşdə ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində yaranan problemlər, cəbhə xəttində yaşayan dinc əhalinin üzləşdiyi çətinliklər barədə məlumat verilib. Ağdam rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov bildirib ki, Ermənistan silahlı birləşmələri rayonun təmas xəttinə yaxın olan yaşayış məntəqələrini daima atəş altında saxlayır, dinc əhalinin təsərrüfat işləri ilə məşğul olmasına imkan vermirlər.

Diqqətə çatdırılıb ki, sonuncu monitorinqin keçirildiyi oktyabrın 31-dən indiyədək mülki əhalinin yaşadığı ərazilərdə 129 dəfə atəşkəs pozulub. Düşmənin atəşi nəticəsində ötən dövrdə bir mülki şəxs yaralanıb.

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri səmimi qəbul və ətraflı məlumat üçün təşəkkür ediblər.

*Təlim*

# Zəfər günü uzaqda deyil

*Döyüşdə qələbənin qazanılmasında hər bir qoşun növünün özünəməxsus rolu var. Belə ki, bir qoşun növünün rolu digəri ilə müqayisə oluna bilməz, çünki hər biri özəlliyi ilə fərqlənir. Döyüşün uğurla başa çatdırılmasında və qələbənin təmin edilməsində mühüm rol oynayan vasitələrdən biri də hərbi bölmələr arasında möhkəm və etibarlı rabitə əlaqəsinin təmin edilməsidir.*



"N" hərbi hissəsinin artilleriya divizionunun rabitə bölməsinin fərdi hazırlıq dövründə fəaliyyəti ilə tanışlıq zamanı əmin oluruq ki, Azərbaycan Silahlı Qüvvələrinin rabitə bölmələri bu gün tarixi təməl üzərində yeni uğurlu nəticələr əldə etməyə, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar.

"Son illər Azərbaycan Ordusunda rabitəçi hərbçilərin hazırlığı da yüksək səviyyədə aparılır. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarının bilik səviyyəsi və hazırlığı xüsusilə diqqəti cəlb edir. Belə vətənpərvər zabitlərin rabitə bölməsində xidmət etməsi rabitəçi əsgər hazırlığında da mühüm rol oynayır", - deyə mayor Cəlal Mustafayev bildirdi.

Baş leytenant Şəhriyar Muradov tarixi torpaqlarımızın işğalçılardan təmizlənməsində rabitəçilərin də üzərinə böyük məsuliyyət düşdüyünü qeyd etdi: "Gördüyünüz rabitə aparatları vasitəsilə müxtəlif qoşun növləri arasında əlaqə yaradılır, səmərəli hücum strategiyasının təmin olunmasına dəstək verilir, düşmənin istehkam qurğuları, artilleriya batareyaları, sığınacaqları, eləcə də digər strateji hərbi obyekt və məntəqələri, canlı qüvvəsi barədə koordinatlar mərkəzə ötürülür. Nəticədə rabitə vasitəsilə taborlarla qərargahlar arasında da rabitə təmin edilir. Mövcud hava nəqli radio-rabitə aparatları rəislərlə və taborlarla əlaqənin yaradılması baxımından geniş imkanlara və mühüm əhəmiyyətə malikdir".

"Ermənilərin əsrlər boyu Azərbaycan torpaqlarına sahib çıxmaq iddialarından, onların xalqımıza qarşı həyata keçirdikləri soyqırımı və etnik təmizləmə siyasətindən və məkrli düşmənə qarşı Vətən övladlarımızın, o cümlədən rabitəçilərimizin qəhrəmanlıqlarından çox misallar gətirmək olar. Göstərilən qəhrəmanlıq nümunələrində qadın hərbi qulluqçularımızın, xüsusilə rabitəçi qadınların rolu danılmazdır", - deyə çavuş Vüsalə Abışova vurğuladı.

Çavuş Samirə Musayeva və kiçik çavuş Vəfa Nağıyeva qeyd etdilər ki, onlarla rabitəçinin şəhidlik zirvəsinə yüksəlməsi, onların ikisinin Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülməsi, hazırda rabitə sisteminin müxtəlif sahələrində çalışan 300-ə yaxın müharibə veteranının keçdiyi döyüş yolu onlar üçün örnəkdir.

Əsgər Həsən Mikayılzadə hesab edir ki, vəzifəsi cəbhənin ön xəttində yerləşən bölmələr ilə fasiləsiz rabitəni təşkil etməkdir: "Bu da məsuliyyət və cavabdehlik tələb edir. Çünki rabitəçi hücum edən hərbi hissələrlə birlikdə ön sıralarda komandirin yanında getməli, lazım olanda isə geriyə hamıdan sonra çəkilməlidi. Döyüşlərdə rabitəçilərin rolu böyükdür. Döyüşün gedişi rabitənin necə təmin olunmasından çox asılıdır".

Əsgər Elxan Atamoğlanov qeyd etdi ki, hər gün xidmət etdiyi yerdən tarixi torpaqlarımıza baxanda çox təsirlənir: "Azərbaycan qədim tarixə malik olan bir dövlət kimi şərəfli və qürur duyulacaq keçmişə malikdir. Keçən il Azərbaycan Ordusunun və Bakının işğaldan azad olunmasının 100 illiyi ilə bağlı keçirilən paradlar da dediklərimin sübutudur. Düşünəndə ki, ermənilərin bu yaşadıqları ərazilər qədim Azərbaycan torpaqlarıdır, bax, onda adam öz torpağında düşmənin rahat gəzməsini həzm edə bilmir".

Əsgər Qüdrət Şirəliyev vurğuladı ki, ən böyük arzusuna gedən yol yüksək biliklərə yiyələnməkdən keçir: "Ən böyük arzum tarixi torpaqlarımızı, Qarabağımızı azad görməkdir. Əlbəttə, bu asan başa gəlməyəcək. Azərbaycan əsgəri bu yolda istənilən çətinliyə hazırdır. İnanırıq ki, zabitlərimizdən öyrəndiklərimizin, dərslərdə, təlimlərdə mənimsədiklərimizin hesabına xalqımızın səbirsizliklə gözlədiyi zəfər günü uzaqda deyil..."

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Heydər Əliyev adına Hərbi Lisey ölkəmizdə ixtisaslı hərbçi kadr hazırlığına öz töhfəsini verir

*Dövlətimizin başçısının 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılıb.*

"Müstəqil Azərbaycanın bu gün də, gələcəkdə də çox güclü ordusu olmalıdır. Olmalıdır ki, torpaqlarımız bundan sonra işğal edilməsin. Olmalıdır ki, torpaqlarımızın hər bir qarışı qoruna bilsin. Olmalıdır ki, dünya tarixində böyük yer tutmuş sərkərdələr kimi müstəqil Azərbaycanın özünün də hərbi sərkərdəsi olsun", - deyən Ulu Öndərin müdrikliyi və uzaqgörənliyi sayəsində ölkəmizdə qüdrətli milli ordu yaradılıb, onun ixtisaslı hərbçi kadrlarla təminatına böyük qayğı ilə yanaşılır. Naxçıvanda hərbi təmayüllü məktəbin yaradılması da məhz bu uzaqgörənliyin nəticəsində mümkün olub. Dahi rəhbərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaradılıb.





1999-cu ilin oktyabrında filialın yeni tədris korpusunun açılışında iştirak edən Ulu Öndərimiz bu hərbi təhsil müəssisəsinin yaradılması zərurətindən danışaraq deyib: "Tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları - Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ...Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi".

Həmin dövrdə 56 kursantla fəaliyyətə başlayan filial ötən dövrdə böyük inkişaf yolu keçib, Naxçıvanda gənclərin hərb sənətinə marağının artmasına səbəb olub.

## Ulu Öndərin adını daşıyan ilk ünvan

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev milli ordu quruculuğunu, gənc hərbçi kadrların yetişdirilməsini prioritet məsələ kimi diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısının 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının əsasında Heydər Əliyev adına Hərbi Liseyin yaradılması da hərbi kadr hazırlığına növbəti töhfə idi. Ulu Öndərin adını daşıyan ilk ünvan olan Heydər Əliyev adına Hərbi Liseydə ötən dövrdə geniş quruculuq işləri aparılıb, burada Ümummilli Liderin büstü ucaldılıb, ikimərtəbəli qərargah binası, müasir tədris korpusu və yataqxana binası istifadəyə verilib, maddi-texniki baza xeyli gücləndirilib, kursantların yaşayış şəraiti yaxşılaşdırılıb. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2005-ci il dekabrın 19-da liseydə yaradılan şəraitlə tanış olub, kursantlar qarşısında çıxış edərək deyib: "Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu liseydə təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar".

## Hərbi liseydə ölkəmizin müxtəlif bölgələrindən 100-dən çox kursant təhsil alır

Hazırda Heydər Əliyev adına Hərbi Liseydə 400-ə yaxın kursant təhsil alır ki, onların da 100-dən çoxu ölkəmizin digər bölgələrindəndir. Liseydə ən müasir avadanlıq və şəraitlə təmin olunmuş sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, iki linqafon kabinəsi, tarix, coğrafiya və hərbi kabinələr, 13 elektron lövhəli sinif, iki kompüter kabinəsi, müasir avadanlıqlarla təchiz olunmuş qapalı və açıq idman kompleksləri, süni örtüklü mini futbol meydançası, zəngin kitabxana var. Bu gün elektron lövhələr və internetə çıxışı olan kompüterlər dərslərin interaktiv formada keçirilməsinə və hərbi liseyin muzey şəbəkəsinə qoşulmasına imkan verir, dəqiq elmlər və xarici dillər müasir metodlarla tədris olunur. Kitabxana fondu latın qrafikalı yeni nəşrlərlə, o cümlədən elmi, bədii, siyasi və tarixi əsərlərlə təmin edilib.

Bütün bu imkanlardan səmərəli istifadə edən müəllim-zabit heyəti bilikli, vətənpərvər, sağlam və əqidəli hərbçilərin yetişdirilməsində əllərindən gələni əsirgəmirlər. Keçirilən dərslərlə yanaşı, müxtəlif disput, olimpiada və yarışlar təşkil olunur, kursantların muxtar respublikada keçirilən tədbir və yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, Heydər Əliyev adına Hərbi Liseyin nəticələri ildən-ilə artır, ali hərbi məktəb və akademiyalara qəbul olunan kursantların sayı çoxalır.

Bu gün Heydər Əliyev adına Hərbi Lisey öz ətrafında yüzlərlə vətənpərvər gənci birləşdirən mötəbər hərbi təhsil müəssisəsinə çevrilib. Hərbi təhsil müəssisəsində tədrisin keyfiyyətini daha da artırmaq, kursantları mənəvi-psixoloji cəhətdən hazırlıqlı yetişdirmək üçün ardıcıl tədbirlər görülür. İlboyu keçirilən test-sınaq imtahanlarında, açıq və yoxlama dərslərində kursantların biliyi, fəallıqları yoxlanılır, nitq mədəniyyətinə yiyələnmələri, xarici dil mənimsəmələri daim diqqətdə saxlanılır.

## Kursantların asudə vaxtlarının səmərəli təşkili də diqqət mərkəzindədir

Kursantların asudə vaxtlarının səmərəli təşkili istiqamətində də müvafiq tədbirlər görülür. Liseydə bilik yarışları, viktorinalar, tematik gecələr, kitab müzakirələri, şeir, inşa müsabiqələri keçirilir, muxtar respublikanın tarixi və görməli yerlərinə, muzeylərə ekskursiyalar, teatr tamaşalarına, filmlərə baxışlar təşkil olunur, oxunması zəruri olan kitabların müzakirələri aparılır. Liseyin kursantları muxtar respublikada keçirilən bilik olimpiadalarının və idman yarışlarının, Əlahiddə Ümumqoşun Ordu üzrə idman yarışlarının, bədii özfəaliyyət və baxış-müsabiqələrinin də fəal iştirakçılarıdır. Kursantlar ölkə və muxtar respublika üzrə keçirilən fənn olimpiadalarında fəal iştirak edib, onlardan 2-si qızıl, 1-i gümüş, 7-si bürünc medal qazanıb.



## Yeni-yeni uğurlara imza atılır

Bu gün Heydər Əliyev adına Hərbi Liseyi bitirənlər Müdafiə Nazirliyinin birləşmələrində, Hərbi Dəniz və Hərbi Hava Qüvvələrində, Milli Qvardiya və Dövlət Sərhəd Xidmətində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində müxtəlif vəzifələrdə şərəf və ləyaqətlə qulluq edirlər. Fəaliyyəti dövründə liseyi 4 kursant qızıl, 4 kursant gümüş, 11 kursant isə fərqlənmə attestatı ilə bitirib. Məzunlardan 64-ü xarici dövlətlərdə, o cümlədən Rusiya, Türkiyə və İtaliyada təhsillərini davam etdirirlər. Liseyin 5 əməkdaşı xüsusi xidmətlərinə görə dövlətimiz tərəfindən müxtəlif fəxri adlar və təltiflərlə mükafatlandırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov hərbi lisey kursantlarına müraciətlə deyib: "Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində məqsədyönlü tədbirlər görülür. Ordu, birləşmə və hissələrinin maddi-texniki təminatı gücləndirilir, silahlanmaya ən müasir döyüş texnikaları daxil edilir. Bu bir reallıqdır ki, ordunun gücü, onun döyüş qabiliyyəti yalnız güclü maddi-texniki baza və silah təminatı ilə deyil, həm də komandan-zabit heyətinin hərbi hazırlığı və vətənpərvərliyi ilə ölçülür. Vətənpərvər və peşəkar zabit heyəti olmadan nizami və mütəşəkkil ordu yaratmaq, döyüş tapşırıqlarını uğurla yerinə yetirmək mümkün deyil. Hər bir kursant hərbi təhsil sistemini mükəmməl mənimsəməli, bilik və təcrübəsini artırmalı, müasir silahları, hərbi texnikanı bacarıqla idarə etmək vərdişlərinə yiyələnməlidir. Vətənə xidmətin əsasında dövlətçiliyimizə və dəyərlərimizə sədaqət dayanır. Milli dəyərlərimizi, tariximizi və qəhrəmanlıq ənənələrimizi öyrənməli, hər an Vətənin müdafiəsinə hazır olmalı, Azərbaycan zabiti adının şərəf və məsuliyyətini öz xidmətinizlə doğrultmalısınız".

Heydər Əliyev adına Hərbi Lisey artıq 15 ildir ki, Ulu Öndərin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi milli ordumuzun savadlı, bacarıqlı, ləyaqətli, vətənpərvər zabitlərlə təmin olunması yolunda fəaliyyət göstərir. Hərbi liseyin zabit-müəllim heyəti, kursant və məzunları bu şərəfli adı doğrultmağa çalışır, Heydər Əliyev yoluna sədaqət nümayiş etdirirlər.

AZƏRBAYCAN ORDUSU



## NATO-nun təhsil üzrə ekspertləri ilə işçi görüşü keçirilib

Hərbi təhsil sisteminin inkişafına dəstək üzrə NATO-Azərbaycan birgə fəaliyyət planına uyğun olaraq Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı (DEEP) çərçivəsində NATO-nun ekspert qrupu ilə Müdafiə Nazirliyinin mütəxəssisləri arasında işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı çərçivəsində 2018-ci il ərzində həyata keçirilmiş fəaliyyətlər təhlil edilib, həmçinin cari il üçün tədbirlərin planlaşdırılması məsələləri nəzərdən keçirilib və yeni əməkdaşlıq sahələri müəyyən edilib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***1 mart 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Qaraqaşlı, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## "Azərbaycanı beynəlxalq sülhyaratma missiyasında təmsil etmək qürurvericidir"

Əfqanıstan İslam Respublikasından sülhməramlılarımızın bir qrupu Vətənə dönüb. Onların təəssüratlarını qələmə almaq məqsədi ilə "N" hərbi hissəsində olduq.

Hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini zabit Ramin Əliyev qeyd etdi ki, NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən ordumuzun sülhməramlıları təntənəli surətdə yola salınır və qarşılanır. Zabit onu da dedi ki, Azərbaycan Ordusunun Əfqanıstanda sülhməramlı missiyası 20 noyabr 2002-ci ildən başlayıb. "Bu tarixdən etibarən sülhməramlı bölüyümüz Əfqanıstanda beynəlxalq sülhyaratma əməliyyatlarına dəstək verməkdədir. İlk olaraq 22 nəfərlik sülhməramlı taqım Əfqanıstanda NATO-nun komandanlığı altında Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri tərkibində fəaliyyət göstərməyə başladı. 2009-cu ilin oktyabrında isə Milli Məclis Əfqanıstandakı sülhməramlı kontingentin sayının iki dəfə artırılması barədə qərar qəbul etdi. Sülhməramlı kontingentin əsas tapşırığı Həmid Kərzai adına Beynəlxalq Hava Limanının mühafizəsi, bölgədə sülhün, təhlükəsizliyin və sabitliyin təmin edilməsində iştirak etməkdədir. Bu gün Azərbaycan sülhməramlı qüvvələri "Qətiyyətli Dəstək" missiyasına öz töhfəsini verməkdə davam edir."



"Sülhməramlı əməliyyatlara şəxsi heyət hansı prinsiplər əsasında komplektləşdirilir?" sualına cavab verən zabit R.Əliyev bildirdi ki, birinci olaraq könüllülük prinsipi əsas götürülür. "Belə ki, hərbi qulluqçu raportla müraciət edir, müvafiq yoxlamalardan, tibbi müayinələrdən keçirilir və xüsusi hazırlıq proqramı əsas götürülərək onlardan məqbullar qəbul edilir. Şəxsi heyətin yüksək psixoloji və fiziki dözümlülük, mərdlik, cəsurluq, qətiyyətlilik, çəldlik, missiyada çətinlikləri dəfetmə bacarığı nəzərə alınır. Eyni zamanda çətin şəraitdə fiziki, psixoloji qabiliyyətini artırmaq məqsədilə günün nizam qaydasına uyğun olaraq nəzərdə tutulmuş vaxtlarda şəxsi heyətlə fiziki hazırlıq məşqləri, kütləvi idman işi, təlim, döyüş fəaliyyəti və müstəqil fiziki məşqlər təşkil olunur. Xüsusi hazırlıq zamanı şəxsi heyətə keçiriləcək missiyaya uyğun yerli xalqla rəftar, onların adət və ənənələri, standart əməliyyat prosedurları öyrədilir."

Kontingent rəhbəri zabit Səbuhi İsayev digər ölkələrdə Azərbaycanı dünyanın böyük dövlətlərinin sırasında sülhyaratma missiyalarında təmsil etməyin qürurverici olduğunu dedi. "NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyası tərkibində fəaliyyət göstərən ordumuzun sülhməramlı taboru 52 ölkə arasında xüsusilə seçilir. NATO komandanlığı tərəfindən bu, dəfələrlə qeyd edilib. Döyüş, mənəvi-psixoloji, fiziki hazırlıqları ilə seçilən şəxsi heyətimizin nümunəvi yüksək göstəriciləri sülhməramlı missiyada xidmətimizin uğurla aparılmasına zəmin yaradır. Sülhməramlılarımız peşəkarlıqlarını daim artırmaqla xidmətlərində yüksək nailiyyətlər qazanırlar".

Baş leytenant Ağəli Bağırov bildirdi ki, Azərbaycan Ordusunun zabiti kimi ölkəsini dünyanın ən güclü dövlətlərinin orduları sırasında təmsil etmək, doğrudan da, fəxrdir. "NATO geyim formasında, sinəmizdə fərqləndirici medal və Azərbaycanımızın üçrəngli bayrağı xidmətimizin uğurla aparılmasında məsuliyyət hissimizi daha da artırır. Eyni zamanda ordumuzun bu missiyada iştirakı onu göstərir ki, torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Azərbaycan xalqı sülhpərvər, digər ölkələrdə də sülhü bərqərar etməyə çalışan xalqdır".

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Tibb xidməti*

## Əsgərlərin sağlamlığının keşiyindəyik

Şəxsi heyətin sağlamlığına göstərilən qayğı, tibb xidmətinin maddi-texniki bazasının yenilənməsi sahəsində görülən tədbirlər hərbi qulluqçuların sağlamlığının qorunmasında vacib rol oynayır. Hərbi hissələrdə müasir tələblərə cavab verən tibb məntəqələri yeni avadanlıqlarla təchiz olunub.

"N" hərbi hissəsinin tibb məntəqəsinə daxil olduq. Gəlişimiz xəstələrə tibbi yardım göstərilməsi vaxtı ilə üst-üstə düşmüşdü. Həkim onlardan birinin sarğısını dəyişirdi. Onun işinə mane olmamaq şərtilə iş prosesini kənardan müşayiət etdik. Sarğı otağında ilk həmsöhbətim çavuş Nofəl Nuriyev oldu. O, tibb məntəqəsində sanitar-təlimatçı feldşer vəzifəsində xidmət edir. Xidməti ilə qürur duyduğunu deyən Nofəlin məmnunluğu gözlərindən sezilir. O, son illər ərzində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya diqqət və qayğısı sayəsində hərbi səhiyyənin də müasir tələblər səviyyəsində qurulmasından iftixarla danışaraq bildirdi ki, tibb məntəqəsinin günün tələbləri səviyyəsində tibbi avadanlıqlarla təchiz edilməsi hərtərəfli müayinə və müalicələrə imkan verir.

- Orduda xidmət etmək mənim üçün ikiqat qürurvericidir. Ona görə ki, həm Azərbaycan Ordusunun hərbi qulluqçusuyam, həm də əsgərlərimizin sağlamlığının keşiyində dayanıram. Əsgərlərimizə əlverişli tibbi xidmətin göstərilməsi üçün müasir şərait və imkanlarımız mövcuddur. Biz hər gün xəstələri vaxtaşırı müayinə edirik. Onların müayinəsi ilə təcrübəli və peşəkar həkimlər məşğul olurlar. Burada əsgərlər qısa vaxtda müayinə və müalicə olunaraq bölmələrinə qayıdırlar. Vətəni müdafiə edən əsgərlərin sağlamlığı üçün əlimizdən gələni əsirgəmirik. Bizim vəzifəmiz əsgərlərin sağlamlığı keşiyində dayanmaqdır. Çünki Vətənə sağlam övlad lazımdır. Ümummilli liderimiz Heydər Əliyevin sözü ilə desək, "Vətənə sağlam gənclik, sağlam əsgər gərəkdir".



Bu gün ordumuzda qadın hərbi qulluqçular da xidmət edirlər. Tibb bacısı Ülviyyə Aslanova da əsgərlərimizin qulluğunda durur, onlara qayğı göstərir. "Bir qadın üçün forma daşımaq qürurverici hissdir. Mən də sevinirəm ki, ordu sıralarında xidmət edirəm. Burada olmaq, əsgərlərimizə diqqət və qayğı göstərmək bizlər üçün sevindirici haldır. Tibb məntəqəsinə müraciət edən hər bir əsgərə doğma münasibət göstəririk. Sağlamlıqlarına qayıtmaları üçün əlimizdən gələni əsirgəmirik. Bununla kifayətlənmir, vaxtaşırı yataqxanalarda, yeməkxanada və digər xidməti obyektlərdə profilaktik sağlamlıq işləri aparır, ərazini dərman preparatları ilə dezinfeksiya edirik. Məqsədimiz Vətəni müdafiə edən əsgərlərimizin daim sağlam və güclü olmasıdır."

Əsgərlər də burada yaradılan şəraitdən son dərəcə məmnun olduqlarını, həkimlərin onlara qayğı ilə yanaşdıqlarını bildirdilər.

Əsgər Kənan Ataşov tibb məntəqəsinə ilk dəfə müraciət etdiyini bildirdi. O qeyd etdi ki, həkimlər və tibb personalı müalicə və müayinə üçün müraciət edənlərə həmişə diqqət və qayğı ilə yanaşır, lazımi köməklik göstərirlər. "Ön xətdə xidmət etmək şərəflidir. Bizlər gündəlik döyüş növbətçiliyinə çıxır, torpaqlarımızı düşməndən müdafiə edirik. Tibb məntəqəsinə ilk dəfədir müraciət edirəm. Burada mənə hər cür tibbi yardım göstərildi. Ümid edirəm ki, tez bir zamanda sağalıb xidmətimə davam edəcəyəm."

Tibb məntəqəsində çalışan həkimlər, feldşerlər, tibb bacıları hərbi qulluqçuların sağlamlığının qorunması, qarşıya qoyulan vəzifələrin yüksək peşəkarlıq və keyfiyyətlə yerinə yetirilməsi üçün bütün imkanlardan lazımınca istifadə edirlər. Vətən torpağını qorumaq müqəddəs və şərəfli olduğu kimi, onun müdafiəçisinin sağlamlığının keşiyində dayanmaq da şərəflidir.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

Gənc zabitlərimiz

# Şərəfli yolun başlanğıcında

*Ümummilli lider Heydər Əliyevin yüksək diqqət və qayğı göstərdiyi sahələrdən biri də ordu quruculuğu idi. O, hakimiyyətinin bütün dövrlərində gənclərimizdə hərb peşəsinə marağın gücləndirilməsi işinə ciddi diqqət yetirərək "zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır" demişdi. Zabit peşəsi, doğrudan da, ən müqəddəs və vacib peşələrdən biridir. Çünki bu peşənin sahibləri Vətən qoruyucularıdırlar.*

Leytenant Cavid Hüseynov da bu müqəddəs peşəyə yiyələnən gənclərimizdəndir. Onu "N" hərbi hissəsinin ön xətt bölməsində tanıdım. Hərb peşəsinə olan sevgisi ona 15 yaşı olarkən hərbi mundiri geyinməyin sevincini yaşadıb. 2011-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olub. Daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini müvəffəqiyyətlə bitirib. 2018-ci ildə bir ömür çiyinlərində qürurla daşıyacağı rütbələrini taxıb, arzusunda olduğu peşəyə yiyələnib.

- Hərb peşəsini öz istəyimlə seçmişəm. Daha dəqiq desəm, uşaqlıq dostlarımın da bu peşəni seçməsi mənə stimul olub. Onlar yaşca məndən bir yaş böyük idilər. Hərbi liseyə qəbul oldular. Dostlarımın andiçmə günündə iştirakım, onları və onlar kimi yüzlərlə həmyaşıdımı hərbi formada görmək bu istəyimə su səpdi. Bir il sonra mən də onların sırasında olacağıma qərar verdim. Ailəm və yaxınlarım da bu seçimimə sevindilər.

Leytenant düşüncələrinə sarılıb dedi ki, Hərbi liseydə "Şərəf andı" içdiyi günü heç vaxt unutmayacaq. "Bir il əvvəl o meydanda dostlarım Hərbi andı qəbul edirdilər, mənsə onların sırasında olmağı arzulayırdım. Arzum reallaşdı, mən də kursant olmağın sevincini yaşadım. Andiçmədən sonra təntənəli marşla valideynlərimizin qarşısından keçdik. Onların fəxrli baxışlarını hiss etdikcə seçdiyim peşənin müqəddəsliyini dərk etdim, kursant olmağımla bir daha qürur duydum. Özümə söz verdim ki, Azərbaycan Ordusuna layiqli zabit olacam, xidmətimlə qürurlanan valideynlərimin başını daim uca tutacam.

Bu çətin, amma şərəfli yola qədəm qoyan Cavidin simasında peşəsinə sonsuz sevgi ilə bağlandığı hiss olunurdu. Ona bir sual ünvanlayıram: "Hərb peşəsi şərəfli olduğu qədər də çətin peşədir. Bu peşənin məsuliyyətini necə hiss edirsən?"

- Həyatda asan peşə yoxdur. Əgər bir işdə uğur qazanmaq, seçdiyin sənətin peşəkarı olmaq istəyirsənsə, hər çətinliyinə də dözməlisən. Bəli, hərb peşəsi



çətin və məsuliyyətli peşədir. Hərbi forma daşıyan hər kəs kimi mən də bu peşənin çətinliyini dərk edirəm. Lakin peşəmi bütün çətinlikləri unutduracaq qədər çox sevirəm. Bu peşənin müqəddəsliyi ondadır ki, xalq sənə güvənir, arxalanır. Ona görə də heç bir çətinlik bilmədən istənilən şəraitdə, ölkəmizin istənilən bölgəsində Vətənimə layiqincə xidmət etməyə hazıram.

Gənc zabit xidmətinin təşkilində komandirlərinin təcrübələrindən, öyrətdiyi biliklərdən yararlandığını bildirdi. "Kursant vaxtı komandirim olan kapitan Yusif Əhmədovu (indi mayor) xüsusi qeyd etmək istəyirəm. Onun idarəçilik qabiliyyəti, bacarığı, dürüstlüyü, mərdliyi və zabitə xas müsbət keyfiyyətlərini hər zaman özümə nümunə götürmüşəm. Hərbi xidmətə gələn gəncləri Vətənimizə sədaqətlə xidmət edən əsgərlər kimi formalaşdırmaq üçün əlimdən gələni əsirgəmirəm. Döyüş hazırlığı ilə yanaşı, əsas vəzifələrimdən biri də tabeliyimdəki şəxsi heyəti milli-mənəvi dəyərlərimizə bağlılıq ruhunda tərbiyə etmək və onlara yüksək döyüş ruhu aşılamaqdır. Bu vəzifələrin öhdəsindən uğurla gəlmək üçün ən əvvəl əsgərlərin sevgisini qazanmaq vacib şərtdir. Çünki əsgər ən əvvəl komandirinə inanmalı, onu ən yaxın, əziz şəxs kimi qəbul etməlidir. Bunun üçün də onlara doğma münasibət bəsləyir, səmimi söhbət edir, qayğıları ilə yaxından maraqlanıram. Hər zaman çalışıram ki, tabeliyimdə xidmət edən hər bir əsgər özünü ailəsindəki kimi rahat hiss etsin, kollektiv arasında mehribançılıq olsun, qarşılıqlı münasibətlər düzgün qurulsun."

Bölmədə olduğum vaxt ərzində şəxsi heyətin nizam-intizamına, səliqə-sahmana, mehribançılığına və səmimiyyətinə şahid oluram. Burada istər komandirlə əsgər arasında, istərsə də əsgərlə əsgər arasında qarşılıqlı münasibətlərin qaydasında olduğunu izləyirəm. Bunların hamısı deməyə əsas verir ki, leytenant C.Hüseynov gənc olmasına baxmayaraq, bacarıqlı, savadlı zabitdir və vəzifələrinin öhdəsindən layiqincə gəlir. Hərb peşəsinin hələ astanasında olan müsahibimlə xoş təssüratlarla ayrılır, onun da ordumuzun ən layiqli zabitləri sırasında yer tutacağına inanırıq.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

Nümunəvi xidmət

# Böyük Qələbəni qeyd edəcəyimiz günü səbirsizliklə gözləyirik



İllərdir ölkəmiz istəmədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ müharibəsinə cəlb olunub. Bu müddət ərzində torpaqlarımızın 20 faizi işğal olunub, dövlətimiz bir çox daxili və xarici təzyiqlərlə üzləşib. Ümummilli liderimiz Heydər Əliyevin sayəsində ölkəmiz üzləşdiyi təzyiqlərə sinə gərməyi bacarıb. İqtisadi tərəqqi yolunu tutan Azərbaycan cəmiyyətin və ordunun inkişafına nail olub. Onun nəticəsidir ki, 2016-cı ilin aprel döyüşləri və 2018-ci ilin Günnüt zəfəri ilə ordumuz xalqımıza qələbə sevinci bəxş etdi. Bu gün xalqımız əmindir ki, Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə tarixi torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır.

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində gördüklərim də bunu deməyə əsas verir. Əsgər Fuad Nuriyev döyüş növbətçiliyində işğal altında olan torpaqlarımızı müşahidə edir. Bir neçə dəqiqə sakitcə Vətənimizin müdafiəçisini izləyirəm. Düşünürəm ki, əsgərlərimiz nə qədər ağır və məsuliyyətli bir işi həyata keçirirlər. Onlar hər gün tarixi torpaqlarımıza müşahidə sektorundan baxanda həm kədərlənir, həm də qürurlanırlar. Qürurlanırlar ki, Vətənimizi düşməndən qoruyur, insanlığa sığmayan vəhşilikləri bir daha törətmələrinə imkan vermirlər. Kədərlənirlər ki, Vətənimizin dilbər güşəsini ermənilər işğal ediblər. Ermənilər qadınlara, uşaqlara, ağsaqqallara, ağbirçəklərə zərrə qədər rəhm etmədən bizi yurd-yuvalarımızdan didərgin salıblar, el-obamızdan ayırıblar, torpaqlarımızı zəbt ediblər. Bu gün hər birimizin yeganə amalı işğal olunan torpaqlarımızı azad etməkdir. Necə ki, 2016-cı ilin aprelində biz bunun şahidi olduq. Vətənin dar günündə hər birimiz onun yanında olmalıydıq, olduq da. İndi biz Böyük Qələbəni qeyd edəcəyimiz günü səbirsizliklə gözləyirik.

Sanki fikirlərimi oxuyan əsgər F.Nuriyev "Vətənimizin hər bir qarış torpağı bizim üçün əzizdir" dedi. "Qarabağımız, tarixi torpaqlarımız düşmən tapdağındadır, hər gün bizim yenidən geri dönəcəyimiz günü gözləyir. Böyüklərdən həmişə oraların gözəlliyindən eşidəndə, sanki bir sehirli aləmə düşürdüm. İndi torpaqlarımızı sadəcə izləməknən kifayətlənmək mənə çox ağır gəlir. Hər günə döyüşə gedəcəyimiz gün kimi hazırlaşıram. Hamımız düşmənin bütün fəaliyyətlərini nəzarət altında saxlayırıq. Hər hansı bir şübhəli hərəkət baş verərsə, dərhal komandirimizə məlumat veririk. Əminəm ki, bir gün mən gözlədiyim əmri alacağam. Komandirimiz "Hazırlaşın, Qarabağımızdan və digər tarixi torpaqlarımızdan erməniləri qovub çıxaracağımız gün gəlib çatdı" deyəcək. Bax, o zaman sevincimin həddi-hüdudu olmayacaq. Çünki həmin gün uşaq vaxtımdan arzusuyla böyüdüyüm gün olacaq. Torpaqlarımızı düşməndən azad edəcəyik, yurd-yuvasından didərgin düşən soydaşlarımız doğma el-obalarına geri qayıdacaqlar".

Fuadın bu sözləri Qarabağımızın gözlədiyi kimi, Azərbaycan əsgərinin də Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini səbirsizliklə gözlədiyinin bariz nümunəsidir.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**



# Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, fevralın 27-də Ağdam rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika, Oqnyen Yoviç və Saymon Tiller aparıblar.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. XVI əsrin başlanğıcında Azərbaycan ərazisinin tarixi coğrafiyası, ölkədaxili siyasi-iqtisadi vəziyyət, dövlət quruluşu və hərbi qüvvələr.**

**2. Səfəvilər sülaləsi, Azərbaycan Səfəvilər dövlətinin yaranması.**

**3. Səfəvilər dövləti və Osmanlı Türkiyəsi arasında münasibətlər.**

**Mövzu:** Azərbaycan orta əsrlərdə. Azərbaycan Səfəvilər dövləti.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

*XVI əsrin başlanğıcında Azərbaycan ərazisinin tarixi coğrafiyası, ölkədaxili siyasi-iqtisadi vəziyyət, dövlət quruluşu və hərbi qüvvələr*

XV əsrin sonları XVI əsrin başlanğıcına doğru Azərbaycanda bir sıra müstəqil feodal dövlətləri yaranmışdı ki, onlardan ən mühümü Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri idi. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ərazisi Cənubi Azərbaycanı və Qarabağı, şimalda Kür çayına qədər Gəncə və Şəmkiri əhatə edirdi. Hər üç dövlətin quruluşu eyni olub, bir-birindən əsaslı şəkildə fərqlənmirdi. Fərq yalnız onda idi ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri aparatında Azərbaycan tayfalarının hərbi-feodal əyanları - baharlı və bayandırlı tayfaları əsas rol oynayırdılar. Hər iki sülalənin dövlət başçıları "padşah" titulu daşıyırdılar. Şirvanda isə dövlət hakimiyyəti feodal əyanlarına mənsub idi. Şirvan dövlətinin başçıları özlərini "şah" adlandırırdılar.

Hakim sülalənin üzvlərindən və ya məşhur əmirlərindən təyin olunan ordunun baş komandanı Əmir-ül Üməra (əmirlər əmiri) titulunu daşıyır, padşahdan sonra birinci şəxs sayılırdı. Hərbi qüvvələr padşahın xüsusi və vilayət canişini qoşunlarından ibarət idi. Hər ikisi Azərbaycanın feodal qoşun hissəsini təşkil edirdi. Komanda heyəti feodal əyanlarından seçilirdi. Orduda ali rütbəli şəxs əmir adlanırdı. Vilayətlərdə əmirlərin sırasından böyük əmirlər ayrılırdı. Bunların da ordunun rəhbər heyətində xüsusi yeri vardı. Kiçik rəislər qibtaul adlanırdılar. Ordunun sıravi tərkibi zireh geymiş süvarilərdən-puşandarlardan, tirkətbən-oxatanlardan, xidmətçilərdən ibarət idi. Komanda heyəti dəmir geyimlə yanaşı, zərif ipək paltar da geyirdi. Ağqoyunlu əsgərləri başlarına şiş papaq qoyardılar. Qoşunun tərkibi müxtəlif idi: burada çəkməçi, tacir, tibb işçisi və s. peşə sahibləri vardı.

Feodal pərakəndəliyi ölkənin ayrı-ayrı hissələri arasında təsərrüfat əlaqələrinin möhkəmlənməsinə mane olur və məhsuldar qüvvələrin inkişafını ləngidirdi. Ağqoyunlu şahzadələri arasında ara müharibələri, feodal hakimlərin özbaşınalığının artması kənd təsərrüfatı və sənətkarlığın tənəzzülünə səbəb oldu, şəhər və kənd əməkçilərinin vəziyyətini ağırlaşdırdı. Feodal pərakəndəliyi, həmçinin yadellilərə qarşı mübarizədə xalqın birliyinin yaranmasına mane olurdu. Odur ki, Azərbaycanı siyasi cəhətdən birləşdirmək zərurəti artıq meydana çıxmışdı. Bu birləşmə Azərbaycan əhalisinin geniş kütlələrinin mənafeyinə uyğun gəlirdi. Yalnız belə bir dövlət yaratmaqla feodal pərakəndəliyini aradan qaldırıb Azərbaycanın müstəqilliyini qorumaq olardı. Bu vəzifəni isə XIII yüzilliyin sonunda Azərbaycanın Ərdəbil şəhərində yaşamış Səfəvilər sülaləsi hakimiyyəti ələ keçirməyə başladı.

*Səfəvilər sülaləsi, Azərbaycan Səfəvilər dövlətinin yaranması*

Azərbaycan dövlətçiliyi tarixində Səfəvilər dövlətinin özünəməxsus yeri vardır. Səfəvilər sülaləsinin daxilində tarixi mübarizə Şeyx Səfiəddindən sonra sülalənin görkəmli başçıları, o cümlədən Şah İsmayılın (1487-1524) dövründə kəskin xarakter aldı. Beləliklə, Səfəvilərin Ərdəbil hakimliyindən sonrakı dövrünü onların Azərbaycanın siyasi həyatında mühüm rol oynaması, bütün Azərbaycanda hakimiyyətin yaranması və möhkəmlənməsi dövrü kimi qiymətləndirmək olardı. Məhz Səfəvilərin Ərdəbil hakimiyyəti mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılması yolunda başlanğıc rolunu oynamışdır. XV əsrin ortalarından etibarən Səfəvilər daha fəal siyasət yeritməyə başladılar. Onlar uğurlu hərbi yürüşlər keçirərək böyük qənimətlər əldə edir və öz mövqelərini möhkəmləndirirdilər. Əsrin II yarısında artıq Muğanın bir hissəsi, Qarabağ və Azərbaycanın Talış dağlarına qədər olan şərq torpaqları onların təsiri altına düşmüşdü. Həm də Səfəvilərin ayrı-ayrı nümayəndələri tarix səhnəsində daha ruhani başçısı kimi yox, siyasi xadim kimi çıxış edirdilər.

Səfəvilərin hakimiyyəti Şah İsmayılın dövründə daha da gücləndi. Onlar kütlələri öz tərəflərinə cəlb etmək üçün ədalətli qərarlar vəd edirdilər. Təkcə Ərzincan səfəri ərzində İsmayılın bayrağı altına müxtəlif tayfalardan 7 min qazi toplaşdı. Bu müşavirədə Səfəvilər birinci zərbəni Şirvanşahlara vurmaq qərarına gəldilər. Çünki əks halda, yəni Təbrizə hücum etməklə dərhal üç düşmənlə - Ağqoyunlu Əlvənd Mirzə və Muradla, habelə onları müdafiə edən Şirvanşah Fərrux Yasarla üzləşməli olardılar. Beləliklə, 1500-cü ilin payızında qızılbaşlar (Səfəvilər) Kürü keçib Şirvan ərazisinə daxil oldular. Şirvanın paytaxtı tutuldu, Fərrux Yasarın başı kəsildi, qızılbaşlar Şirvanşahların böyük sərvətini ələ keçirdilər. Sonra İsmayıl Bakı üzərinə yeriyərək onu ələ keçirdi. Ağqoyunlu Əlvənd Mirzə bundan bərk narahat oldu. O, İsmayılın cənuba doğru hərəkətinə nə qədər mane olmağa çalışsa da, buna müyəssər olmadı. 1501-ci ilin ortalarında Naxçıvan ərazisində onlar arasında həlledici döyüş baş verdi. Bu döyüşdə İsmayıl əsl sərkərdəlik məharəti göstərərək qələbə qazandı.

Həmin qələbədən sonra, 1501-ci ilin payızında İsmayıl təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan etdi. Beləliklə, paytaxt Təbriz olmaqla Səfəvilər dövlətinin əsası qoyuldu. Azərbaycan Səfəvilər dövlətinin özəyi idi. Bu dövlətdə əhalinin etnik və mədəni birliyə malik çoxluğunu Azərbaycan türkləri təşkil edirdilər. Azərbaycan etnik ünsürü dövlətin siyasi həyatında rəhbər rol oynayırdı. XVI əsrin 74 əmirindən 69-u Azərbaycan türkü idi. Ordu da əsasən Azərbaycan tayfalarından təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmalarda Azərbaycan türkcəsindən istifadə olunurdu.

Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Bu ölkənin təsərrüfat həyatı üçün şərait yaratdı, yadellilərə qarşı xalqın mübarizəsini asanlaşdırdı.

Şah İsmayılın qələbələri çoxlarını narahat edirdi. Bəzi feodallar, hakimlər siyasi həyatda müstəqillik və hakimiyyət iddiası ilə çıxış edirdilər. Səfəvilər dövləti üçün təhlükəli düşmən Murad padşah Həmədanda qoşun qalıqlarını toplayaraq qızılbaşlara zərbə endirməyə çalışırdı. Belə olduqda İsmayıl 12 min nəfərlik qoşunla Təbrizdən çıxaraq, Qızılüzən çayını keçib Həmədan yaxınlığına gəldi. 1503-cü il iyunun 21-də baş verən döyüş nəticəsində Muradın qoşunları məğlubiyyətə uğradı. Murad Şiraza qaçdı. İsmayıl onu təqib edərək İranın içərilərinə doğru irəlilədi və müqavimətsiz Şirazı ələ keçirdi. Beləliklə, Ağqoyunlu dövlətinin varlığına son qoyuldu. İsmayıl Əlvənd üzərində qələbə ilə İran və Əcəm İraqının xeyli hissəsinə yiyələndi.

*Səfəvilər dövləti və Osmanlı Türkiyəsi arasında münasibətlər*

Səfəvilər dövlətinin meydana çıxması və onun qüdrətinin artması Osmanlı Türkiyəsini narahat edirdi. Osmanlı İmperiyası Səfəvilərin düşməni olan Ağqoyunlu padşahına kömək edir, yeni dövlətin möhkəmlənməsinə mane olmağa çalışırdı. Lakin Türkiyə sultanı II Bəyazit Şah İsmayıla qarşı müharibəyə başlamağa cəsarət etməyərək, 1504-cü ildə bu dövləti tanımağa məcbur oldu. Bununla belə, Osmanlı feodalları Azərbaycanı və qonşu ölkələri ələ keçirmək iddialarından əl çəkmirdilər. Səfəvilər isə Gürcüstanı və Türkiyənin bir sıra şərq torpaqlarını özlərinə tabe etmək niyyətində idilər.

Şah İsmayılın ölümündən sonra onun oğlu I Təhmasib taxta çıxdı (1524-1576).

Süleyman Qanuninin (1520-1566) vaxtında Osmanlı ali təbəqəsi öz nüfuz dairələrini şərq istiqamətində genişləndirmək cəhdlərindən əl çəkmirdi. Odur ki, qarşılıqlı hücumlar ara vermir, illərlə davam edirdi. Nəhayət, 1555-ci il mayın 29-da Amasiyada Səfəvi-Osmanlı müharibəsinin birinci mərhələsini başa çatdıran sülh müqaviləsi imzalandı. Bu sülhə görə, Qərbi Gürcüstan - İmeretiya, Menqreliya və Quriya Türkiyənin, Gürcüstanın şərq vilayətləri - Mesxi, Kartlı, Kaxetiya və indiki Ermənistan Səfəvilərin ixtiyarına keçdi. Lakin bu sülh uzun sürmədi. XVI əsrin 70-ci illərindən etibarən Osmanlı işğalının yeni dövrü başlandı. Bu vaxt Səfəvilər dövlətinin başında Məhəmməd Xudabəndə (1578-1587), Osmanlı dövlətinin başında isə Sultan II Murad (1574-1595) dururdu.

Beləliklə, 1586-1589-cu illərdə bütün Azərbaycan Sultan II Muradın ordusu tərəfindən zəbt olundu. Səfəvilər ərazilərinin qalan hissəsini itirməmək üçün sülhə razılaşdılar. 1590-cı ildə imzalanan İstanbul sülh müqaviləsinə görə, Azərbaycandan əlavə indiki Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri Türkiyəyə verildi. Səfəvilər dövləti təzliklə süquta uğradı.

Osmanlı ilə müharibənin davam etdiyi illərdə İranda hakimiyyət dəyişikliyi oldu. I Şah Abbas taxt-taca sahib oldu (1587-1629). O da Azərbaycana qarşı planlarını gizlətmirdi. 1607-ci ildən etibarən hərbi əməliyyatlara başlayan I Şah Abbas Şirvana hücum etdi. O, zəbt etdiyi ərazilərdə güclü farslaşdırma siyasəti yeridir, amansız bir idarə üsulu yaradırdı.

1639-cu il mayın 17-də Qəsri-Şirində imzalanmış sazişə görə Səfəvi-Osmanlı müharibəsinə son qoyuldu. Ərəb İraqı osmanlılara, Zəncir qalasından şərqdəki torpaqlar Səfəvilərə verildi. Səfəvilər Van və Qars qalalarına, həmçinin Ahalsixa hücum etməyəcəklərinə dair təminat verdilər. Səfəvilər dövlətinin süqutundan sonra Azərbaycan torpaqları parçalandı və ayrı-ayrı ərazilərdə xanlıqlar yaranmağa başladı.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## “Ermənistan rəsmilərinin bu kimi bəyanatları ucuz təbliğat xarakteri daşıyır”

Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidməti Ermənistan müdafiə nazirinin bu ölkənin ictimai televiziyasına verdiyi müsahibə ilə bağlı açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada Ermənistan rəsmilərinin bu kimi ucuz təbliğat xarakterli bəyanatları ilə Azərbaycanı qorxutmağın mümkün olmadığı bildirilir. Qeyd edilir ki, Ermənistan nazirinin fikri 1990-cı illərin əvvəllərində başı daxili çəkişmələrə qarışan və bu fürsətdən istifadə edərək torpaqlarını zəbt etdikləri Azərbaycanın müstəqilliyinin ilk illərinə getməsin. Bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə kifayət qədər güclü, peşəkar və işğal olunmuş torpaqları azad etmək əzmində və iqtidarında olan vətənpərvər Silahlı Qüvvələrə sahibdir. Azərbaycanın güclü iqtisadiyyatı, uğurlu daxili və xarici siyasəti onu bölgədə danılmaz liderə çevirib.

Ermənistan müdafiə nazirinin ölkəsinin 27 il öncə işğal etdiyi Azərbaycanın Xocalı şəhərinin dinc sakinlərinin soyqırımının ildönümü günü Ermənistanın hücum silahları alması ilə əlaqədar bəyanatla çıxış etməsi bu ölkənin açıq təcavüzkar siyasətinin bariz göstəricisidir. Xatırlatmaq istərdik ki, 2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə edildiyi halda, məhz Ermənistan tərəfinin hücum xarakterli yeni hərbi doktrina qəbul etməsi və aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı əraziləri, o cümlədən məktəblər, xəstəxanalar və ibadət yerlərini ağır silahlardan atəşə tutması məlum aprel hadisələrinin baş verməsinə gətirib.

Erməni müdafiə nazirinin bu bəyanatı kimin sülh istədiyini, kimin isə işğalçılıq siyasəti yürüdərək hücum xarakterli silahlar əldə etdiyini beynəlxalq ictimaiyyətə aydın şəkildə nümayiş etdirir.

# Naxçıvan qarnizonu üzrə hərbi qulluqçular arasında daşqaldırma birinciliyi keçirilib

*Naxçıvan qarnizonu üzrə hərbi qulluqçular arasında daşqaldırma birinciliyi keçirilib. "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan birincilikdə 16 komandadan 90 idmançı 6 çəki dərəcəsində mübarizə aparıb.*





Birincilik daşqaldırma yarışlarının proqramına daxil olan birdən və təkanla qaldırma üzrə keçirilib. Hər çəki dərəcəsində şəxsi yerlər hər iki növ çalışmada yığılmış ən çox xalla müəyyən edilib. Şəxsi hesabda 60 kq çəki dərəcəsində əsgər Əliyar Məmmədov, 65 kq çəki dərəcəsində baş çavuş Rəşad Həsənov, 70 kq çəki dərəcəsində kursant Elməddin Sultanzadə, 80 kq çəki dərəcəsində əsgər Turqut Məmmədli, 90 kq çəki dərəcəsində gizir Sərxan Zeynalov və 90 kq-dan yuxarı çəki dərəcəsində leytenant Səid Feyziyev birinci yerə layiq görülüb.

Yekun nəticələrə əsasən komanda hesabında üçüncü yerdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları, ikinci yerdə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandası, birinci yerdə xüsusi təyinatlılar qərarlaşıb. İlk üçlüyə düşməyi bacaran qaliblər Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklarla mükafatlandırılıb.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında spirtli içki qəbuletmə səbəbindən törədilən cinayət hadisələrinin sayı çoxalır.

Ağdərə ərazisində düşmən ordusunun bölmələrindən birində xidmət edən leytenant Mher Qriqoryan rayon mərkəzindəki kafedə tanışları tərəfindən təşkil edilən məclisdə ofisiantla mübahisə edib. Sonradan münaqişə davaya çevrilib və nəticədə leytenant M.Qriqoryan mülki şəxslər tərəfindən döyülüb.

Hadisə ilə bağlı açılan cinayət işini aparan istintaq şöbəsinin rəis müavini Ardak Xaçatryan zabitdən külli miqdarda rüşvət tələb edib. Pulu ödəməyəcəyi təqdirdə A.Xaçatryan zabitə uzun müddətli həbs cəzasına məhkum olunacağını bildirib.

Faktla bağlı istintaq davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında spirtli içki qəbul edərək maşını idarəetmə halları artıb.

Müqavilə əsasında hərbi hissədə sürücü işləyən Artur Hovakimyan alkoqollu vəziyyətdə idarə etdiyi hərbi avtomobillə qəza törədib. Qəzanın səbəblərini araşdıran Maralik polisinin rəis müavini Artaş Harutunyan hərbi sürücüyə bu vəziyyətdən canını qurtarmağın yegana yolunun ona böyük məbləğdə pul ödənilməsi olduğunu "mədəni surətdə izah" edib.

Sürücünün yaxınları A.Hovakimyanın işdən qovulmaması və baş verən qəzanın ört-basdır edilməsi üçün rüşvət verməyə razılaşıblar.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində komandirlərin təqib və təzyiqləri səbəbindən hərbi xidmətdən yayınma halları artıq adi hala çevrilib.

Bu günlərdə altıncı dağatıcı alayın zabiti Tiqran Hovanisyan xidmətdən yayınmaq məqsədilə hərbi hissəni özbaşına tərk edib. Zabitin geri qaytarılması üzrə axtarışlar nəticə verməyib. Lakin bir neçə gün sonra zabit özü Ağdərə hərbi polisinin əməkdaşı Levon Avanesyana təslim olub.

T.Hovanisyan izahatında hərbi hissəni məhz komandirlərinin təhqir və təqibləri üzündən özbaşına tərk etdiyini yazıb və əgər bu belə davam edərsə, intihar edəcəyini də deyib.

**Hazırladı:
İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

# "Xrizantema-S" raket kompleksi



"Xrizantema-S" (raket kompleksinin indeksi 9K1239M123, NATO və ABŞ MN təsnifatı üzrə - AT-15S Sprinqer) tank əleyhinə özüyeriyən raket kompleksidir. Raket kompleksi Kolomenski Maşınqayırma Konstruktor Bürosunda hazırlanıb. "Xrizantema-S" raket kompleksi tankları, PDM və digər yüngül zirehli hədəfləri, mühəndis və tikililəri, susstü hədəfləri, aşağı sürətli hava hədəflərini və canlı qüvvələri (həmçinin açıq sahələrdə və sığınacaqlarda) məhv etmək üçün nəzərdə tutulub.

Kompleksin buraxıcı qurğusunda eyni vaxtda raketlərlə birlikdə iki konteyner də quraşdırıla bilər. Raketlər ardıcıl olaraq buraxılır. "Xrizantema-S" TƏİR-i iki növ döyüş komplektindən ibarətdir: 9M123 kalibraltı tandem-kumulyativ döyüş hissəsindən və fuqaslı (termobarik) 9M123F raketindən. Kompleksin tərkibinə 9P157 döyüş maşını, tank əleyhinə idarəolunan 9M123 və 9M123F raketləri, nəzarət-yoxlama 9V945 aparatı (döyüş maşınlarını yoxlamaq üçün) və raketlərin yoxlanması üçün) 9V990 maşınları, (raketlərin yoxlanılması üçün) 9V946 nəzarət-yoxlama aparatı, trenajor dəsti, praktiki idarəolunan raket və təlim-məşq raketinin maketi, tədris-texniki plakatlar dəsti və s. daxildir.

"Xrizantema-S" özüyeriyən tank əleyhinə raket kompleksinin 9P157 döyüş maşınının heyəti iki nəfərdən ibarətdir. Maşın yüksək keçidliyə malikdir və kütləvi qırğın silahının istifadə etmə hallarında da fəaliyyət göstərməyə qadirdir. Maşının döyüş komplektinin avtomatlaşdırılmış hissəsində 15 ədəd tank əleyhinə idarəolunan raket saxlanılır. Raketlər maşına yüklənmə mexanizmi vasitəsilə və ya əllə yerləşdirilir. Maşın optik-lazerli tuşlama sistemi və radiolokasiya idarəetmə sistemi ilə təchiz edilib. Döyüş maşınının atəş tezliyi dəqiqədə dörd raketə qədərdir.

"Xrizantema-S" tank əleyhinə raket kompleksinin taktiki-texniki xüsusiyyətlərinə gəldikdə isə onun maksimal atəş uzaqlığı 5000 metrdən az deyil. Minimal atəş uzaqlığı 400 metr, raketin uçuş sürəti yüksəksəslidir, döyüş hissəsinin kalibri 155 mm-dir, raketin uzunluğu (TPK-da) 2300 mm, çəkisi isə 62 kiloqrama qədərdir.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Respublikası tarixində Hərbi Dəniz Qüvvələrinin ən böyük təlimi başlayıb



Fevralın 27-də Türkiyə Hərbi Dəniz Qüvvələrinin "Mavi Vətən-2019" adlı, respublika tarixində ən böyük hərbi təlimi başlayıb.

Ölkə tarixində ilk dəfə olaraq Türkiyəni əhatə edən Qara, Egey və Aralıq dənizlərində keçirilən təlimə 103 gəmi qatılıb. Təlimin təkcə Aralıq dənizinin şərq hissəsində 5 freqat, 4 hücum, 2 minaaxtaran, 1 amfibiya, 1 yanacaq, 4 gözətçi, 1 sahil mühafizəsi gəmisi və 3 köməkçi gəmi iştirak edir.

NATO-nun təlim planına əsasən təşkil olunan "Mavi Vətən-2019"-da altı aylıq planlaşdırma müddəti tətbiq edilir. Təlimin məqsədi Hərbi Dəniz Qüvvələrinə aid gəmilərin və hava sistemlərinin əməliyyatlara hazırlıq səviyyəsinin artırılmasıdır.

"Mavi Vətən-2019" təlimində əməliyyatların planlaşdırılması müddəti və ölkədə milli səviyyədə inkişaf etdirilərək hazırlanan Hərbi Dəniz Oyunlar Sistemi, eləcə də təlimin kompüter sistemlərinin dəstəyi ilə idarə edilməsinin səviyyəsi yoxlanılacaq.

## NATO-Gürcüstan əməkdaşlığı çərçivəsində Tbilisidə hərbçilər üçün növbəti təlim keçirilib



NATO-Gürcüstan hərbi əməkdaşlığını əhatə edən "Substantiv NATO-Gürcüstan paketi" çərçivəsində Tbilisidə növbəti tədbir keçirilib.

Bu paket çərçivəsində fevralın 26-27-də Gürcüstanın Müdafiə Qüvvələrinin Logistika Departamentinin hərbi qulluqçuları üçün "Logistika-informatik sistemlərinin məruzəsi" adlı kurs təşkil olunub. Kursda Macarıstandan gəlmiş mütəxəssislər gürcü həmkarları ilə öz təcrübələrini bölüşüblər. Macar təlimçilər logistika-informasiya sistemlərinin təşkili ilə bağlı əhəmiyyətli informasiyaları gürcü hərbçilərə çatdırıblar.

Kursun əsas məqsədi logistika sahəsində şəxsi heyətin NATO standartlarına uyğun olaraq hazırlanması, eyni zamanda, döyüş və sülhməramlı əməliyyatlarda hərbi qulluqçuların daha hazırlıqlı iştirakını təmin etməkdir.

## Pakistan Hindistanın iki hərbi təyyarəsini vurub



Pakistan Kəşmirin özünə məxsus ərazisində Hindistanın iki hərbi təyyarəsini vurduğunu bildirib.

Pakistan Silahlı Qüvvələrinin mətbuat katibi general-mayor Asif Qafur bildirib ki, hava sərhədini keçən Hindistan Hava Qüvvələrinə məxsus iki qırıcı təyyarə vurulub. Onlardan birinin pilotu həbs edilib, digər təyyarə isə Pakistan hava məkanını tərk edərək Hindistan ərazisinə düşüb.

Fevralın 26-da Hindistan Hava Qüvvələri Pakistanda yerləşən silahlılara qarşı hava hücumu həyata keçirib. Bununla bağlı, rəsmi İslamabad BMT-də də məsələ qaldırıb.

## Cənubi Koreyaya məxsus qırıcı təyyarə qəzaya uğrayıb



Cənubi Koreya hərbi hava qüvvələrinin F-16 qırıcı təyyarəsi Sarı dəniz üzərində qəzaya uğrayıb.

Bu barədə Cənubi Koreya silahlı qüvvələrinin birləşmiş qərargahı məlumat yayıb. Bildirilir ki, hər iki pilot təyyarə Sarı dənizə düşməzdən əvvəl katapult edərək xilas olub. Hələlik, qəzanın səbəbi barədə məlumat verilmir.

**AZƏRTAC-ın
materialları əsasında**

# Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə Hərbi həkim işi ixtisası üzrə 2019-2020-ci tədris ili üçün qəbul qaydaları

**I. Ümumi müddəalar:**
Tədris dili: Azərbaycan dili
Təhsil forması: əyani
Təhsil müddəti: 6 il
Yaş həddi: Cari ildə mülki ümumtəhsil müəssisələrinin tam orta təhsil səviyyəsini bitirmiş, 15 sentyabr 2019-cu ilə qədər 16 yaşı tamam olan və 23 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər. Hərbi Tibb Fakültəsinə qəbul olan şəxslər ödənişsiz əsaslarla təhsil alırlar.

**II. Sənədlərin qəbulu:**
Hərbi həkim işi ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul olmaq istəyən namizədlər 1 aprel 2019-cu il tarixdənərizə ilə fakültə rəisinə müraciət etməlidirlər.
**Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:**
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- məhkumluğu barədə arayış;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən şəxsən təqdim edilir.
**Qeyd:** Namizədlər hər hansı səbəbdən Hərbi Tibb Fakültəsində təhsil almaqdan imtina etdikləri halda, Azərbaycan Tibb Universitetindən xaric ediləcəkləri barədə öhdəlik götürürlər.

**III. Hərbi Tibb Fakültəsinə qəbul iki mərhələdə həyata keçirilir:**
Namizədlər Hərbi Tibb Fakültəsində hərbi həkim komissiyasından keçməlidirlər.
Naxçıvan Muxtar Respublikasında yaşayanlar hərbi həkim komissiyasından Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) keçməlidirlər.
Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.
Hərbi həkim işi ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.
Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı verirlər. Qəbul imtahanı test üsulu ilə birinci mərhələdə buraxılış imtahanı (Azərbaycan dili, riyaziyyat, xarici dil) fənləri üzrə, ikinci mərhələdə isə IV ixtisas qrupunun (biologiya, kimya, fizika) fənləri üzrə Azərbaycan dilində keçirilir.
Namizədlər Hərbi Tibb Fakültəsinə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı əsasında qəbul edilirlər.
Sənədlər Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində qəbul olunur.
**Ünvan:** Bakı şəhəri, Ceyhun Səlimov küçəsi, 3. Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ərazisi. Əlaqə telefonu: 541-13-36.
Naxçıvan Muxtar Respublikasında yaşayanlar sənədlərini Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) təqdim edirlər. Əlaqə telefonu: 544-00-15, 544-00-16.
Test imtahanının keçirilmə tarixi əlavə olaraq bildiriləcək.

# Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə Hərbi feldşer işi ixtisası üzrə 2019-2020-ci tədris ili üçün qəbul qaydaları

**I. Ümumi müddəalar:**
Tədris dili: Azərbaycan dili
Təhsil forması: əyani
Təhsil müddəti: 2 il
Yaş həddi: Cari ildə mülki ümumtəhsil müəssisələrinin tam orta təhsil səviyyəsini bitirmiş, 15 sentyabr 2019-cu ilə qədər 17 yaşı tamam olan və 19 yaşı tamam olmayan, habelə müddətli həqiqi hərbi xidmət keçmiş 23 yaşına qədər hərbi vəzifəli Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər.
Hərbi feldşer işi ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul olan şəxslər təhsil müddətində bütün təminat növləri ilə təmin olunur və ayda 185 AZN məbləğində müavinət alırlar.

**II. Sənədlərin qəbulu:**
Hərbi feldşer işi ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul olmaq istəyən namizədlər 1 aprel 2019-cu il tarixdənərizə ilə Azərbaycan Tibb Universiteti Hərbi Tibb Fakültəsinin rəisinə müraciət etməlidirlər.
**Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:**
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- məhkumluğu barədə arayış;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən şəxsən təqdim edilir.

**III. Hərbi feldşer işi ixtisası üzrə hərbi tibb fakültəsinə qəbul iki mərhələdə həyata keçirilir:**
Namizədlər Silahlı Qüvvələrin Baş Klinik Hospitalında hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən bildirilir.
Naxçıvan Muxtar Respublikasında yaşayanlar hərbi həkim komissiyasından Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) keçməlidirlər.
Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.
Hərbi feldşer işi ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.
Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada test üsulu ilə keçirilən qəbul imtahanı verirlər. Test imtahanı aşağıdakı fənlər üzrə Azərbaycan dilində aparılır:
- Azərbaycan dili;
- kimya.

Sənədlər Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində qəbul olunur.
**Ünvan:** Bakı şəhəri, Ceyhun Səlimov küçəsi, 3. Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ərazisi. Əlaqə telefonu: 541-13-36.
Naxçıvan Muxtar Respublikasında yaşayanlar sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə (Naxçıvan şəhəri) təqdim edirlər. Əlaqə telefonu: 544-00-15, 544-00-16.
Test imtahanının keçirilmə tarixi əlavə olaraq bildiriləcək.

# İdman

## Güllə atıcılığı üzrə Bakı birinciliyinin qalibləri müəyyənləşib



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən "Neftçi İdman Klubu" İctimai Birliyinin atıcılıq mərkəzində güllə atıcılığı üzrə paytaxt birinciliyi keçirilib.
Baş İdarədən bildiriblər ki, birincilikdə 35 idmançı mübarizə aparıb.
Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Nəzrin Abbaslı KÇTÇ-4 və PTÇ-3 hərəkətlərində birinci olub. PT-4 hərəkəti üzrə yarışlarda Rükufə Quliyeva fərqlənib. Ramiz Xəlilov PT-4, Loğman Babaşov KÇTÇ, Vladislav Kalmikov isə PTÇ-3 hərəkətində fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.
İlk üç yeri tutan idmançılar Baş İdarə tərəfindən medallar, müvafiq dərəcəli diplomlar və xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

## Qadın güləşçilərimiz Ukraynada güclərini sınayacaqlar



Martın 2-də Ukraynanın Poltava şəhərində yeniyetmələr arasında qadın güləşi üzrə beynəlxalq turnir keçiriləcək.
Böyük məşqçi Həsrət Məmmədyarov və məşqçi Solmaz Həşimzadənin rəhbərliyi altında yarışda ölkəmizi 5 yeniyetmə güləşçi təmsil edəcək.
Poltavada Gültəkin Şirinova, Nərgiz Səmədova (hər ikisi 49 kq), Elnurə Məmmədova (53 kq), Jalə Əliyeva (61 kq) və Nigar Mirzəzadə (65 kq) mübarizə aparacaqlar.

## Usta cüdoçular arasında Azərbaycan çempionatının qalibləri müəyyənləşib



Bakı İdman Sarayında usta cüdoçular arasında Azərbaycan çempionatı keçirilib.
Yarışda müxtəlif kateqoriyalar üzrə 110 veteran idmançı medallar uğrunda mübarizə aparıb. Çempionatın qalib və mükafatçılarına medallar və federasiyanın diplomları təqdim olunub.
Usta cüdoçular arasında respublika çempionatının qalibləri Avropa birinciliyində mübarizə aparacaqlar.

## Azərbaycanın 7 şahmatçısı kişilər arasında Avropa çempionatında mübarizə aparacaq



Martın 18-dən 29-dək Şimali Makedoniyanın paytaxtı Skopyedə kişi şahmatçılar arasında Avropa çempionatı keçiriləcək.
43 ölkədən 365 şahmatçı, o cümlədən 151 qrossmeyster turnirdə iştirakını artıq təsdiqləyib.
Qitə çempionatında mübarizə aparacaq şahmatçılar arasında təmsilçilərimiz Rauf Məmmədov, Qədir Hüseynov, Ülvi Sadıqov, Məhəmməd Muradlı, Abdulla Qədimbəyli, Kənan Qarayev və Cahangir Azadəliyevin də adları var.
İsveçrə sistemi üzrə keçiriləcək Avropa çempionatı 11 turdan ibarət olacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 185
Nüsxə 3950